**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**GƏNCƏ DÖVLƏT UNİVERSİTETİ**

**"Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində*, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində* kredit sistemi ilə tədrisin təşkili Qaydaları"na dair**

# TÖVSİYƏLƏR

**GƏNCƏ 2021**

**Hazırladı**:

Dos. Fəxrəddin Məmmədov- GDU-nun tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektoru

İ.f.d. Elturan Yusifov- GDU-nun tədris departamentinin direktoru

Bu tövsiyələr Azərbaycan Respublikasının təhsil haqqında Qanunu, Təhsil prosesi ilə əlaqədar normativ-hüquqi aktlar, Təhsil Nazirliyinin əmr və sərəncamları, Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları, Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, *əsas (baza ali) tibb təhsilində* təhsilalanların köçürülməsi, xaric edilməsi, bərpa olunması və akademik məzuniyyət götürülməsinə dair Qaydalar, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 dekabr 2013-cü il № 348 Qərarı ilə təsdiq olunmuş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları" və tədrisə aid digər normativ-hüquqi sənədlər əsasında hazırlanıb.

## Ön söz.

**Əziz tələbələrimiz!**

Bu tövsiyələrin Sizə Universitetdə təhsil alacağınız dövrdə Bolonya prosesinin əsas müddəalarından biri olan kredit sistemi ilə tədrisin təşkili qaydaları barədə yardımçı olacağına ümid edirik. Tövsiyələrdə Sizə tədris məşğələlərinin quruluşu, kreditlərin mahiyyəti, onların götürülməsi, qazanılması, akademik borcların ləğvi, yay semetrində iştirak kimi mühüm tədris işləri barədə məlumat verilməsi nəzərdə tutulub. Bu tövsiyədən eyni zamanda tədrisi kredit sistemi ilə təşkil olunan təhsil müəssisələrində çalışan tədris-köməkçi heyət, tyutorlar və professor-müəllim heyəti istifadə edə bilər.

Bəs haqqında danışılan Bolonya prosesi nədir?

**Bolonya prosesi** – Avropalı tələbə və işçilər, həmçinin dünyanın digər ölkələrindən olan tələbə və işçilər üçün cəlbedici olan, beynəlxalq əməkdaşlıq və akademik mübadiləyə əsaslanan Avropa Ali Təhsil Məkanının yaradılması məqsədini daşıyan prosesdir. Həmin proses tələbə, məzun və ali təhsil işçilərinin mobilliyini, tələbələrin gələcək karyeralarına və demokratik cəmiyyətlərdə fəal vətəndaşlar kimi hazırlanmasını, onlara inkişaf və demokratik prinsiplər və akademik azadlığa əsaslanan yüksəkkeyfiyyətli ali təhsil almaq üçün geniş imkanların yaradılmasını təmin etməlidir.

Təşəkkül tarixi ötən əsrin sonlarına təsadüf edən Bolonya prosesi Avropa ölkələri təhsil sistemlərinin inteqrasiyası və ümumavropa ali təhsil məkanının formalaşdırılmasını nəzərdə tutur. Ölkəmiz bu prosesə 2005-ci il mayın 19-da qoşulub. Norveçin Berqen şəhərində keçirilən konfransda Azərbaycan Bolonya prosesinin həqiqi üzvü seçilib.

Azərbaycan Bolonya Bəyannaməsini imzalayanda onun bəzi müddəaları, prinsipləri artıq ölkəmizdə tətbiq olunurdu. Belə ki, 1992-ci ildə qəbul olunmuş "Təhsil haqqında" Qanuna əsasən ikipilləli ali təhsilə, çoxballı qiymətləndirmə sisteminə keçilmiş və bu sahələrdə xeyli müsbət təcrübə toplanmışdı. 2005-ci ildən isə bu sahədə aparılan işlərin Bolonya sisteminin tələblərinə uyğunlaşdırılmasına, bəyannamədə nəzərdə tutulan digər müddəaların, o cümlədən kredit sisteminin (Avropa Kredit Transfer Sisteminin) tətbiqinin, təhsilin keyfiyyətinə nəzarətin gücləndirilməsinin, mobilliyin genişləndirilməsinin, ixtisasların və diplomların qarşılıqlı tanınmasının, diploma əlavələrin Avropa ölkələrinin ali təhsil haqqında müvafiq sənədlərinə uyğunlaşdırılmasının, məzunların işlə təminatına nail olunmasının, ali təhsil sisteminin cəlbediciliyinin təmin edilməsinin gerçəkləşdirilməsinə başlanılıb. İlkin mərhələdə ölkənin 10 ali məktəbində bəzi ixtisaslarda eksperimental qaydada tətbiq olunan kredit sistemi sonra bütün ali məktəbləri və ixtisasları əhatə edib. Prosesin tətbiqi ilə bağlı bir sıra normativ sənədlər hazırlanaraq təsdiq edilib.

Ölkəmizdə təhsilin dünya təhsil sisteminə, xüsusən də ali təhsil müəssisələrinin Avropa ali təhsil məkanına inteqrasiya prosesi və Bolonya Bəyannaməsinin tələblərinin yerinə yetirilməsi sahəsində işləri sürətləndirmək məqsədi ilə ölkə başçısı tərəfindən 31 yanvar 2008-ci il tarixində "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin Avropa ali təhsil məkanına inteqrasiyası ilə bağlı bəzi tədbirlər haqqında" sərəncam imzalanıb. Həmin sərəncama əsasən "2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı" qəbul olunaraq icrası təmin edilib. Bütün bunların nəticəsi olaraq deyə bilərik ki, Bolonya prosesi ölkəmizdə tam tətbiqini tapıb.

Bəs bu proses Azərbaycan təhsilinə nə verib?

- Azərbaycanın Bolonya prosesinə qoşulmasının aşağıdakı kimi üstünlükləri var:

* Azərbaycanın ali təhsilinin Avropa təhsil məkanına inteqrasiyası;

* Tələbə və müəllim kontingentinin vahid Avropa ali təhsil məkanına qoşulan ölkələr arasında mobilliyinin asanlaşdırılması (eyni zamanda bir ölkənin ali təhsil müəssisələri arasında);

* Tələbə və müəllim kontingentinin vahid Avropa ali təhsil məkanına qoşulan ölkələr arasında məşğulluq (işədüzəlmə) prosesinin asanlaşdırılması;

* Diploma əlavənin vahid modelinin yaradılması ilə məzunların əmək bazarında fəaliyyətə başlamasını asanlaşdırması;

* Uzunömürlü təhsil almaq imkanlarının yaradılması (ali təhsil müəssisələrindən akademik uğursuzluğa görə xaric olunmanın aradan qaldırılması);

* Hər bir tələbəyə fərdi yanaşma;

* Hər bir müəllimin tədris etdiyi kursa (fənnə) sərbəst yanaşması;

* Tələbələrə öz təhsil prosesini seçməkdə sərbəstliyin verilməsi (məs., müəllim və fənn seçimində sərbəstliyi);

* Yay semestri imkanlarından istifadə;

* Tədrisi vaxtından əvvəl bitirmə imkanları (bakalavriat səviyyəsində 3.5 il, magistratura səviyyəsində 1.5 il);

* Diplomların ekvivalentliyi və qarşılıqlı tanınması imkanları.

Universitetə qəbul olunan zaman bu “Qaydalar”ın tələbinə görə Sizə tədris işlərində köməklik göstərmək məqsədilə ixtisas üzrə bir tyutor təhkim olunacaq. Sizə tədris işlərində yardım göstərəcək tyutor bütün tədris porsesinin mərhələləri barədə məlumat verməyə borcludur.

Belə ki, tyutor Sizə fərdi tədris planlarının tərtibi, dərs cədvəli, dərslərin forması (mühazirə, seminar və ya praktik məşğələ və laboratoriya), fənləri tədris edəcək müəllimlər barədə məlumat, növbəti tədris illəri üçün seçmə fənlər, imtahanların keçirilmə qaydaları, əlavə fənn götürmə, akademik borcu qalmış tələbələrin borclarını ödəmə qaydaları (akademik borc yaranan semestrdə iki fəndən alt qrupa aid təhsil haqqının 25%-ni ödəməklə və 10 kredit götürməklə alt qrupda və yay semstrində iştirak etməklə), dərs jurnallarının yazılması, qeydiyyatı, dərsə davamiyyət barədə zəruri məlumatlar verməlidir.

Yadda saxlamaq lazımdır ki, tədris ili iki semestrdən ibarətdir- payız və yaz. Əlavə olaraq akademik borcu qalmış tələbələr üçün yay semestri də təşkil oluna bilər.

## Ən çox verilən suallar.

Kredit sistemi ilə tədris təşkili zamanı aşağıda qeyd edilən Sizi maraqlandıran suallara cavabların faydalı olacağına ümid edirik.

1. **Avropa Kredit Transferi və Toplanması Sistemi (AKTTS)** – Avropa İttifaqı və digər tərəfdaş Avropa ölkələrində ali təhsilli məzunların təhsil nailiyyətləri və fəaliyyətlərinin müqayisəsi məqsədi ilə istifadə olunan standartdır. Təhsilini uğurla başa çatdırmış tələbənin topladığı kreditlər AKTTS-ə daxildir. Standartdan və ya peşə-ixtisas növündən asılı olmayaraq, bütün ölkələrdə bir tədris ili 1500-1800 tədris saatına və 60 AKTTS kreditinə bərabərdir. Bu kreditlərdən Avropa İttifaqı ölkələrində tələbələrin mobilliyi və təhsillərini növbəti səviyyədə davam etdirmələrinə dəstək olmaq məqsədi ilə istifadə olunur. AKTTS-ə əlavə olaraq Peşə Təhsili üzrə Avropa Kredit Transferi Sistemi (PTAKTS) işlənilib hazırlanır;

2. **Kredit** – konkret təlim nəticələrinin əldə olunması üçün zəruri olan vaxt çərçivəsində təhsilalanın dərs yükünün ölçülməsi məqsədi ilə istifadə olunan “vahid”dir. Kredit təlim nəticələrinin əldə olunması prosesinə sərf edilən vaxt baxımından ölçülən dərs yükünə əsaslanaraq, müəllim və təhsilalanlara təlimin həcmi və səviyyəsini qiymətləndirmək imkanı yaradır. Təhsilalana iş təcrübəsi, əvvəlki təhsili və ya kurs işinin tanınması əsasında təlim nəticələrinə görə kredit verilə bilər. Bir qayda olaraq, təhsilalanın əldə etdiyi krediti itirilmir. Buna baxmayaraq, müəyyən hallarda ali təhsil müəssisəsi tədris proqramının tərkib hissəsi kimi, kreditin konkret vaxt çərçivəsində əldə olunması tələbini qoya bilər. Belə hallar bilik və bacarıqlar sürətlə dəyişən sahələrə (məsələn, informatika, tibb və s.) aid ola bilər;

3. **kredit sistemi** – təhsilalanın tədris (akademik) nəticələrinin qiymətləndirilmə ölçüsüdür;

4. **ixtisasın (ixtisaslaşmanın) tədris planı** – ali təhsilin müvafiq səviyyəsində ixtisas (ixtisaslaşmalar) üzrə təhsil proqramlarına uyğun olaraq, tədris olunan fənlərə və auditoriyadankənar məşğələlərə ayrılan saatların miqdarını müəyyən edən əsas tənzimləyici sənəddir;

5. **ixtisasın (ixtisaslaşmanın) tədris qrafiki** – ixtisasın (ixtisaslaşmanın) tədris planında göstərilmiş fənlərin tədris illəri üzrə bölgüsünü əks etdirən sənəddir;

6. **tələbənin fərdi tədris planı** – tələbənin tədris ili ərzində təhsil alacağı fənləri, onların müvafiq kreditlərini, fənlər üzrə müəllimlərin siyahısını əks etdirən sənəddir;

7. **ixtisaslar (ixtisaslaşmalar) üzrə illik işçi tədris planı** – ixtisasın (ixtisaslaşmanın) tədris planına və tələbələrin fərdi tədris planlarına uyğun hazırlanmış, cari tədris ilində tədris olunacaq fənlərin adlarını, dərsin növlərini, fənlərin kreditlərini və tələbələrin sayını özündə əks etdirən sənəddir;

8. **müəllimin illik işçi tədris planı** – müəllimin tədris etdiyi fənləri, mühazirə və məşğələlərə (laboratoriya işlərinə) ayrılan saatların miqdarını, həmin fənlərin semestrlər üzrə tədrisini, həmçinin fənn üzrə tələbələrin sayını özündə əks etdirən sənəddir;

9. **tələbənin sərbəst işi** – tələbənin tapşırıqları sərbəst və müəllimin rəhbərliyi ilə auditoriyadankənar həyata keçirdiyi müstəqil işidir;

10. **akademik məsləhətçi (tyutor)** – ali təhsil müəssisələrində *və AMEA-da* tədris məsləhətçisidir;

11. **akademik mobillik** – tələbənin və professor-müəllim heyətinin ölkədaxili və xarici ölkələrin ali təhsil müəssisələrində *və AMEA-da* müvafiq olaraq sərbəst təhsil almaq və akademik fəaliyyət göstərmək hüququdur;

12. **Avropa Kredit Transfer Sistemi (AKTS)** – təhsil proqramı ilə müəyyən olunmuş kompetensiyalara nail olmaq üçün tələbənin iş yükünü və təhsilalma istiqamətini müəyyənləşdirən sistemdir. Bu sistem, həmçinin tələbələrin mobilliyini təmin edir və təhsil proqramlarının dövlətlərarası müqayisəsi və tanınması prosedurlarını asanlaşdırır;

13. **prerekvizit fənlər** – tədrisi ilk növbədə zəruri olan fənlərdir;

14. **akademik transkript** – tələbənin təhsil müddətində keçdiyi fənlər üzrə topladığı kreditləri və qiymətləri (rəqəm və hərflərlə) özündə əks etdirən sənəddir;

15. **fənlər üzrə qeydiyyat** – tələbələrin təhsil müəssisəsinin *və AMEA-nın* müəyyən etdiyi qaydada fənləri seçmə prosedurudur;

**16. Ümumi Orta Müvəffəqiyyət Göstəricisi (ÜOMG)** – tələbənin təhsil proqramını mənimsəmə səviyyəsinin göstəricisidir. ÜOMG tələbənin tədris fəaliyyətini fəallaşdırmaq, özünənəzarət mexanizmini yaratmaq, tədrisdə əldə etdiyi nailiyyətlərini qiymətləndirmək məqsədi ilə tətbiq edilir;

**17. Akademik təqvim** – ali təhsil müəssisəsində *və AMEA-da* tədris ili üzrə nəzərdə tutulmuş tədbirləri özündə əks etdirən sənəddir;

**18. Müvəffəqiyyətlə təhsil alan tələbə** - fərdi tədris planında qeyd olunan bütün fənlər üzrə müəyyən olunmuş kreditləri qazanan tələbədir;

**19. akademik borcu olan tələbə** - fərdi tədris planında qeyd olunan fənlərin ən azı birindən müəyyən olunmuş krediti qazana bilməyən tələbədir;

**20. *tədrisə tam cəlb olunma (fulltime)*** *- ixtisasın təhsil proqramı ilə müəyyən olunmuş normativ təhsil müddətinə uyğun, tədris qrafiki ali təhsil müəssisəsi tərəfindən planlaşdırılan əyani təhsilalma formasının növüdür;*

**21. *tədrisə qismən cəlb olunma (parttime)*** *- ixtisasın tədris planına uyğun, hər semestrdə iki fəndən az olmamaqla, tədris qrafiki tələbə tərəfindən planlaşdırılan əyani təhsilalma formasının növüdür;*

**22. *cari qiymətləndirmə*** *- fənn üzrə tələbənin semestr müddətində fəaliyyətinin qiymətləndirilməsidir;*

**23. *aralıq qiymətləndirmə*** *- fənn üzrə tələbənin imtahan zamanı bilik və bacarıqlarının qiymətləndirilməsidir.*

**24. *Sillabus*** *- fənnin tədris proqramıdır*

**25. Avropa Ali Təhsil Məkanının Kvalifikasiyalar Çərçivəsi (AATMKÇ)** – Avropa regionunda milli (və ya sahələr üzrə) kvalifikasiya çərçivələri və onlara daxil olan kvalifikasiyalar arasında əlaqələrin şəffaflığını təmin edən ümumi çərçivədir. Bu çərçivə ayrı-ayrı çərçivələr arasında əlaqə mexanizmi rolunu oynayır. AATMKÇ-də ali təhsil səviyyələri üzrə deskriptorlar verilir. Hər bir səviyyə ilə bağlı deskriptor həmin səviyyənin başa çatdığını göstərən kvalifikasiyaların əldə olunması üçün tələb olunan nailiyyət və qabiliyyətlərlə bağlı konkret gözləntiləri ümumi formada təsvir edir. Bolonya prosesinə üzv olan 47 ölkə tərəfindən qəbul edilmiş AATMKÇ aşağıdakı məqsədlərə xidmət edən bir sistemdir:

**26.** Təhsilalanlara (vətəndaşlar, işçilər və s.) Avropa regionunda mövcud olan müxtəlif milli, yerli və regional kvalifikasiyaların müqayisə edilməsi üçün imkanların yaradılması;

**27.** Avropanın ali təhsil sistemləri daxilində və bu sistemlər arasında təhsil almaq imkanlarının (mobillik, şəffaflıq, təhsil sənədlərinin qarşılıqlı tanınması) asanlaşdırılması;

**28.** Təhsil proqramlarının məzmununun və müxtəlifliyinin, eləcə də milli, yerli, regional və institusional akademik müstəqilliyinin təmin edilməsi;

**29.** Avropada ali təhsilin rəqabətqabiliyyətliliyinin və səmərəliliyinin inkişaf etdirilməsi;

**30. Bacarıqlar** – tapşırıqların yerinə yetirilməsi və problemlərin həll edilməsi üçün biliklərin tətbiqini və təcrübənin istifadəsini özündə birləşdirir. Avropa Kvalifikasiyalar Çərçivəsi baxımından bacarıqlar koqnitiv (məntiqi, tənqidi və yaradıcı düşünmə qabiliyyəti) və praktiki (fiziki qabiliyyət və müvafiq metod, material, vasitə və avadanlıqlardan istifadə bacarığı) olur. Bacarıq minimal vaxt və enerji (və ya hər ikisini) sərf etməklə, əvvəlcədən müəyyən edilmiş nəticələrin əldə olunmasına yönəldilmiş xüsusiyyətdir. Bacarıqlar, adətən, ümumi və konkret sahəyə yönəldilmiş növlərə bölünür;

**31. Beynəlxalq tanınma** – xaricdə əldə olunmuş kvalifikasiyaların təhsildə və ya gələcək iş fəaliyyəti kontekstində uyğunluğunun təmin olunması üçün istifadə edilən metodologiya və prosedurlardır. Təhsil və ya peşə fəaliyyəti ilə məşğul olmaq məqsədi ilə xarici kvalifikasiyanın müvafiq səlahiyyətli qurum tərəfindən rəsmi olaraq tanınmasıdır;

**32. Bilik** – təlim (öyrənmə) prosesi vasitəsilə informasiyanın mənimsənilməsinin nəticəsidir. Bilik fəaliyyət və ya təhsil sahəsi ilə bağlı fakt, prinsip, nəzəriyyə və praktikanın əsasını təşkil edir. Avropa Kvalifikasiyalar Çərçivəsi baxımından bilik nəzəri və (və ya) faktlara əsaslanan kimi təsvir edilir;

**33. Diplom** – müəyyən təhsil proqramının uğurla başa çatdırıldığını və müvafiq kvalifikasiyanın verilməsini təsdiq edən təhsil haqqında sənəddir;

**34. Diploma əlavə** – kvalifikasiya haqqında sənədə əlavə olunan, bu dərəcəyə/kvalifikasiyaya malik olan şəxsin uğurla başa çatdırdığı təhsilin forması, səviyyəsi, məzmunu və statusunu təsvir edən sənəddir. Bu sənəd Avropa Komissiyası, Avropa Şurası və UNESKO/CEPEC tərəfindən təqdim olunmuş nümunə əsasında işlənilib hazırlanmışdır. Diploma əlavə kvalifikasiyaların şəffaflığını və akademik/peşəkar mühitdə tanınmasını asanlaşdırır;

**35. Deskriptor** – təlim (öyrənmə) nəticələrinin xarakterik xüsusiyyətlərini, bilik və bacarıqları təsvir edir;

**36. İnformal və qeyri-formal təhsil vasitəsilə əldə olunmuş səriştələrin tanınması** – informal və qeyri-formal təhsil vasitəsilə əldə edilən bilik və bacarıqların müvafiq standarta uyğunluğunun akkreditasiyadan keçmiş qurum tərəfindən müəyyənləşdirilməsi, sənədləşdirilməsi, qiymətləndirilməsi və sertifikatlaşdırılması prosesidir;

**37. Keyfiyyət** – hər hansı bir obyektin (məhsulun və ya xidmətin) konkret müəyyən olunan və nəzərdə tutulan ehtiyaclara, standartlara cavab vermə qabiliyyətini özündə ehtiva edən xüsusiyyət və əlamətlərin cəmidir;

**38. Keyfiyyətin təmin olunması** – milli və ya institusional səviyyədə qəbul olunmuş proses, yaxud bir sıra proseslərdir;

**39. Kompetensiya (səriştə)** – şəxsin hər hansı bir işi düzgün icraetmə bacarığı; hər hansı bir fəaliyyət və ya tədqiqat sahəsində, eləcə də peşəkarlıq və şəxsi inkişaf prosesində bilik, bacarıq, sosial və ya metodoloji qabiliyyətlərdən istifadəetmə bacarığı; müvafiq bilik, bacarıq və yanaşmadan istifadə edərək, fəaliyyəti peşəkar mühitdə tələb olunan standartlara uyğun icraetmə bacarığıdır;

**40. Kvalifikasiya** – şəxsin müvafiq standartlara uyğun olan təlim nəticələrinin əldə edilməsi haqqında səlahiyyətli qurum tərəfindən aparılan qiymətləndirmə və təsdiqetmə prosesinin rəsmi nəticəsidir;

**41. Kvalifikasiya üzrə deskriptorlar** – milli səviyyələrə istinad olunmaqla, kvalifikasiyaları və gözlənilən təlim nəticələrini təsvir edən ümumi müddəalardır;

**42. Kvalifikasiya sistemi** – təhsili vətəndaş cəmiyyəti və əmək bazarı ilə əlaqələndirilən, eləcə də təlim nəticələrinin tanınmasına yönəldilən bütün fəaliyyət növləridir. Bu fəaliyyət növlərinə kvalifikasiyalar üzrə siyasətin müəyyənləşdirilməsi, təlim prosesinin təşkili və həyata keçirilməsi, institusional dəyişikliklər, maliyyələşdirmə, keyfiyyətin təmin olunması, qiymətləndirmə, təlim nəticələrinin təsdiqlənməsi və sertifikatlaşdırılması aiddir;

**43. Kvalifikasiya standartı** – müxtəlif səviyyələrdə kvalifikasiyaların verilməsi üçün tələb olunan kompetensiyaları (səriştələri), təlim (öyrənmə) nəticələrini və qiymətləndirmə meyarlarını təsvir edən sənəddir;

**44. Qabiliyyət** – hər hansı bir şəxsə müəyyən fəaliyyət, iş və ya tapşırığı uğurla həyata keçirmək imkanı verən qazanılmış və ya təbii bacarıq, kompetensiya (səriştə), təcrübə, istedaddır;

**45. Qiymətləndirmə** – təhsilalanların bilik, bacarıq, yanaşma və fikirlərinin konkret şərtlər çərçivəsində rəsmi sənədləşdirilməsi prosedurudur. Qiymətləndirmə konkret olaraq təhsilalana, təhsil alan bir qrup şəxslərə (sinif, seminar iştirakçıları və ya digər təhsilalanlar), müəssisə və ya bütövlükdə təhsil sisteminə yönəldilə bilər. Qiymətləndirmə prosesinin məqsədlərinin müxtəlifliyi nəzərə alınmaqla qiymətləndirmə, bir qayda olaraq, diaqnostik, formativ və summativ kateqoriyalara bölünür;

**46. Qiymətləndirmə meyarları** – tədris kursu və ya modulu çərçivəsində nəzərdə tutulan təlim nəticələrini təhsilalan tərəfindən hansı səviyyədə mənimsənilməsini müəyyən etmək məqsədi ilə qiymətləndirən tərəfindən istifadə olunan ölçü vahidləridir;

**47. Qiymətləndirmə standartı** – müəyyən bir kvalifikasiyanın qiymətləndirilməsi ilə bağlı meyar və metodları təsvir edən sənəddir;

**48. Milli Kvalifikasiyalar Çərçivəsi (MKÇ)** – əmək bazarı və vətəndaş cəmiyyəti ilə münasibətdə milli kvalifikasiya alt sistemlərinin bir-biri ilə əlaqələndirilməsi və inteqrasiyası, eləcə də kvalifikasiyaların şəffaflığı, əldə olunması imkanı, ardıcıllığı və keyfiyyətinin inkişaf etdirilməsi məqsədini daşıyan və əldə olunan təlimin konkret səviyyələri üzrə müəyyən edilən meyarlar əsasında kvalifikasiyaların təsnifat vasitəsidir;

**49. Milli kvalifikasiyalar sistemi** – təhsil və təlimi əmək bazarı və vətəndaş cəmiyyəti ilə əlaqələndirən təlim və digər mexanizmlərin tanınması ilə bağlı fəaliyyətin bütün aspektləridir. Bura kvalifikasiyaların keyfiyyətinin təmin olunması, qiymətləndirilməsi və verilməsi ilə bağlı institusional tədbir və prosedurların hazırlanması və həyata keçirilməsi daxildir. Milli kvalifikasiyalar sistemi bir neçə alt sistemdən ibarət ola və özündə milli kvalifikasiyalar çərçivəsini birləşdirə bilər

**50. Milli Kvalifikasiyalar Reyestri (MKR)** – dövlət tərəfindən tanınan təhsil proqramı/müəssisə/kvalifikasiya/peşələrin rəsmi milli siyahısıdır;

**51. Dövlət təhsil standartları** – ayrı-ayrı şəxslərin, cəmiyyətin və dövlətin tələblərinə cavab verən, elmi və pedaqoji prinsiplərə uyğun hazırlanmış qaydalar toplusudur. Milli təhsil standartları müəyyən müddət üçün (5 ildən az olmayaraq) hazırlanır və dövlət tərəfindən müəyyən edilmiş ümumi tələbləri əks etdirir;

**52. Müstəqillik və məsuliyyət** – kompetensiyalar (səriştələr) üzrə deskriptorlardan biridir;

**53. Ömürboyu təhsil** – bilik, bacarıq, kompetensiya (səriştə) və ya kvalifikasiyaların təkmilləşdirilməsi ilə nəticələnən ömürboyu təlimin (öyrənmənin) bütün növləridir;

**54. Ömürboyu təhsil üzrə əsas kompetensiyalar (səriştələr)** – hər bir şəxsə fərdi inkişaf, cəmiyyətə inteqrasiya olunma və məşğulluq üçün zəruri olan bilik, bacarıq, dəyər, yanaşma, fikir və xarakterik cəhət kimi xüsusiyyətləri özündə birləşdirən, dəyişə bilən çoxfunksiyalı sistemi əks etdirir. Bu kompetensiyalar (səriştələr) təhsilalana tədris olunan bütün fənlər çərçivəsində icbari təhsil və ya təlimin sonunda kompleks şəkildə qazanılmalı və ömürboyu təhsil prosesinin tərkib hissəsi olaraq gələcək təhsil üçün əsas rolunu oynamalıdır. Ümumilikdə isə əsas kompetensiyalar (səriştələr) dedikdə, məzunun, müəyyən bir təhsil proqramının bitirilməsi nəticəsində əldə olunmalı ən vacib kompetensiyalar (səriştələr) nəzərdə tutulur. Əsas kompetensiyalar (səriştələr) bir təlim kontekstindən digərinə ötürülə bilir;

**55. Ömürboyu təlim üzrə Avropa Kvalifikasiyalar Çərçivəsi (ÖTAKÇ)** – ayrı-ayrı ölkələrin kvalifikasiya sistemlərini bir-biri ilə əlaqələndirən, Avropanın müxtəlif ölkə və sistemləri çərçivəsində kvalifikasiyaların daha aydın və anlaşıqlı olması məqsədi ilə onların müqayisəsi üçün vasitə rolunu oynayan, Avropada istinad məqsədi ilə istifadə olunan vahid çərçivə sənədidir. Sənədin iki əsas məqsədi vardır: a) ölkələr arasında vətəndaşların mobilliyinin və b) insanların ömürboyu təliminin təşviq edilməsi. ÖTAKÇ Avropa regionunda milli (və ya sahələr üzrə) kvalifikasiya çərçivələri və onlara daxil olan kvalifikasiyalar arasında əlaqələrin şəffaflığını təmin edir. Bu çərçivə ayrı-ayrı çərçivələr arasında əlaqə mexanizmi rolunu oynayır. Hazırda Avropa Kvalifikasiyalar Çərçivəsinin iki növü mövcuddur. Onlardan biri bilavasitə ali təhsillə bağlıdır və Bolonya prosesi çərçivəsində hazırlanmışdır. Digəri isə bütövlükdə təhsilin bütün mərhələlərini əhatə edir və Avropa Komissiyası tərəfindən hazırlanmışdır. Bunlardan birincisi təhsilin aşağı səviyyələrini əhatə etməklə AATM-nin İDÇ, digəri isə təhsilin bütün səviyyələrini, o cümlədən ali təhsil səviyyəsini əhatə etməklə ÖTAKÇ adlanır;

**56. Peşə assosiasiyası** – (həmçinin, peşə qurumu, peşə təşkilatı və ya peşə cəmiyyəti də adlanır) adətən, müəyyən peşənin inkişafına, həmin peşə sahiblərinin və ictimai maraqların təmin olunmasına xidmət edən qeyri-kommersiya təşkilatıdır;

**57. Peşə standartları** – konkret peşə sahəsi üzrə işçinin yerinə yetirməli olduğu işin məzmununa və əmək şəraitinə qoyulan minimum tələblərin məcmusudur;

**58. Peşə Standartlarının Beynəlxalq Təsnifatı (PSBT-08)** – Beynəlxalq Əmək Təşkilatının (BƏT) əmək və peşələr barədə informasiyanın toplanılması məqsədi ilə istifadə edilən təsnifat strukturudur. Bu struktur Birləşmiş Millətlər Təşkilatının beynəlxalq iqtisadi və sosial təsnifat sisteminin bir hissəsidir. Təsnifatın PSBT-08 adlanan sonuncu versiyası 2008-ci ildə dərc olunmuşdur və PSBT-58, PSBT-68 və PSBT-88 versiyalarından sonra sayca dördüncüdür. BƏT-ə əsasən PSBT-nin məqsədi peşələrin əmək fəaliyyəti çərçivəsində icra edilən tapşırıq və vəzifələrə uyğun olaraq müəyyən edilmiş konkret qruplar şəklində təsnif olunmasıdır. Bu təsnifat statistik və digər məqsədlərlə (o cümlədən, iş axtaranlara uyğun vakant yerlərin tapılması, ölkələr arasında işçilərin qısa və uzunmüddətli miqrasiyasının idarə olunması, eləcə də peşə təlimi proqramları və təlimatlarının hazırlanması) istifadə oluna bilər.

PSBT-08-in yeni versiyasının növbəti onillikdə bütün dünyada əmək bazarı ilə bağlı informasiya standartları olaraq qəbul ediləcəyi nəzərdə tutulur;

**59. Proqram üzrə təlimin nəticələri** – hər hansı bir dərəcə proqramı üzrə təhsilini başa vuran təhsilalanın nəyi bilməli, anlamalı və etməli olduğunu təsvir edən 15-20 ifadəlik sistemdir;

**60. Sektor** – əsas iqtisadi funksiyası, fəaliyyət istiqaməti, xidmət və ya fəaliyyət metodikası əsasında peşə fəaliyyətlərinin qruplaşmasıdır;

**61. Sertifikat** – müəyyən istiqamət üzrə təlim nəticələrinin əldə edilməsini təsdiq edən sənəd;

**62. Səlahiyyətli qurum (şəxs)** – öz vəzifələrini icra etmək üçün hüquqi səlahiyyət, imkan və ya gücə malik hər hansı təşkilat və ya insan. Həmin quruma (şəxsə) müəyyən fəaliyyət növünün icra edilməsi məqsədi ilə səlahiyyət verildikdə o, müvafiq məsuliyyət daşıyır;

**63. Səviyyələr** – səviyyələr təhsilalan tərəfindən (inkişaf prosesi çərçivəsində) həyata keçirilən ardıcıl tədbirlər sistemi kimi başa düşülür və konkret proqram çərçivəsində ümumi nəticələr baxımından təsvir olunur;

**64. Səviyyə (pillə) üzrə deskriptorlar** – hər bir səviyyədə nəzərdə tutulan təlimin xarakterik xüsusiyyət və məzmununu təsvir edən və bunun əsasında təlimin nəticələrini və qiymətləndirilmə meyarlarını müəyyən etmək imkanı yaradan ümumi göstəricilərdir;

**65. Standart** – müvafiq razılıq əsasında hazırlanmış və rəsmi qurum tərəfindən təsdiq edilmiş ümumi və təkrar istifadə məqsədi ilə fəaliyyət və ya onun nəticələri ilə bağlı qayda, təlimat, xarakteristikadır. Konkret şəraitdə optimal ardıcıllıq dərəcəsinə nail olmaq məqsədini daşıyan sənəddir;

**66. Təhsilalan** – müxtəlif növ informasiyaların sintezini özündə birləşdirən yeni bilik, davranış, bacarıq, dəyər və ya anlayışları əldə edən şəxsdir;

**67. Təhsil sənədlərinin tanınması üzrə beynəlxalq şəbəkə (ENİC/NARİC)** – Avropa Regionu üzrə İnformasiya Mərkəzləri Şəbəkəsi (ARİMŞ)/Təhsil Sənədlərinin Tanınması üzrə İnformasiya Mərkəzləri Şəbəkəsidir (TSİMŞ). Bu Şəbəkəyə xaricdə əldə olunmuş kvalifikasiyalarla bağlı informasiya və məsləhət xidmətləri göstərən, bu kvalifikasiyaların qiymətləndirilməsini həyata keçirən və beynəlxalq təhsil sənədlərinin tanınmasına yardımçı olmaqla milli təhsil sistemləri arasında inteqrasiyanı təmin edən milli mərkəzlər daxildir. Avropa İttifaqında diplomların, diploma əlavələrin, kredit transferi sistemlərinin tanınması haqqında məlumatların verilməsini təmin edir;

**68. Təlimin nəticələri** – təhsilalanın nələri bildiyini, mənimsədiyini və təlim prosesini bitirdikdən sonra nəyi edə biləcəyini göstərən, eləcə də bilik, bacarıq və kompetensiyaları (səriştələri) müəyyən edən göstəricilərdir;

**69. Təlimin nəticələrinin qiymətləndirilməsi** – müəyyən olunmuş meyarları (təlim nəticələri ilə bağlı gözləntilər, təlimin nəticələrinin qiymətləndirilməsi) əsas götürərək, şəxsin bilik, bacarıq və (və ya) kompetensiyalarının (səriştələrinin) qiymətləndirilməsi prosedurudur.

**70. Kreditlər necə qazanılır?**

- Kreditləri qazanmaq üçün tələbə tədris məşğələlərində iştirak etməli və semestrin sonunda imtahan verməlidir. İmtahan nəticəsi müsbət olarsa kredit qazanılmış hesab edilir.

**71. Tələbəyə fərdi tədris planı üzrə bir tədris ilində neçə kredit nəzərdə tutulur?**

- Bir tədris ili üçün tələbəyə 60 kredit nəzərdə tutulur (30 payız, 30 yaz)

**72. Tələbə akademik borcu yaranarsa onu necə ləğv edə bilər?**

- Tələbə akademik borcunu ləğv edə bilməsi üçün akademik borc yaranan semestrdə alt qrupa aid təhsil haqqının 25% -ni ödəməklə iki fəndən təkrar imtahan verə, alt qrupda tədris məşğələlərində ödənişli əsaslarla iştirak edə və ya yay semestrində iştirak edə bilər.

**73. Tələbə akademik borcunu ləğv edə bilməsi üçün alt qrupda tədris məşğələlərində iştirak üçün əlavə təhsil haqqı ödəməlidirmi?**

- Tələbə akademik borcunu ləğv edə bilmək üçün əlavə təhsil haqqı ödəməlidir. Bu zaman ixtisas üzrə təhsil haqqı 60-a bölünərək götürülən kreditə vurulma yolu ilə hesablanılır. Misal üçün ixtisas üzrə təhsil haqqı 1800 manatdır, götürülən kredit isə 8-dir. O halda 1800/60=30, 30x8=240. Deməli alt qrup üçün təhsil haqqı 240 manatdır.

**74. Alt qrupda iştirak etmək üçün təhsil haqqı ödənişində tələbələrə hansı güzəştlər nəzərdə tutulub?**

- Alt qrupa aid təhsil haqqı ödənişində şəhid ailəsi üzvü olan və valideyn himayəsindən məhrum olmuş tələbələr Universitet Elmi Şurasının qərarı ilə azad edilirlər.

**75. Əgər tələbə kredit qazandığı fəndən azad edilirsə, alt qrup ödənişində ona hansı güzətştlər nəzərdə tutulub?**

- Tələbənin fərdi tədris planı üzrə kreditlərinin sayı 30 olduğuna görə əsas təhsil haqqını həmin 30 kreditə görə ödədiyi üçün azad olunduğu kreditlər 30 kreditdən çıxılır və götürdüyü kreditlər üzərinə əlavə olunur. Bu halda tələbə alt qrup üçün 30 kreditdən artıq hissəni ödəməlidir. Misal üçün, əgər tələbə 7 kreditdən azad edilibsə, deməli tələbənin fərdi tədris planı üzrə krediti 23 olacaq. Əlavə olaraq 10 kredit götürərsə 23-ün üzərinə 10 əlavə edilsə, onda kreditlərin sayı 33 olacaq. Deməli tələbə 10 kreditin deyil, 3 kreditin təhsil haqqını ödəməlidir. Əgər tələbə semestrdə heç bir fəndən azad edilmirsə o halda götürdüyü kreditlərin təhsil haqqını tam şəkildə ödəməlidir.

**76. Tələbə əlavə olaraq neçə kredit götürə bilər?**

- Tələbə əlavə olaraq 10 kredit götürə bilər.

**77. Əgər tələbə bir ixtisasdan digərinə köçürülübsə və ya başqa ali təhsil müəssisəsindən köçürülmə yolu ilə gəlibsə kredit qazandığı fənlərin tədris məşğələlərindən və imtahanlarından azad edilirmi?**

- Təhsil haqqında Azərbaycan Respublikasının Qanuna əsasən tələbə kredit qazandığı fənlərdən azad edilir.

**78. Subbakalavr kimi bakalavriat səviyyəsinə qəbul olunan tələbə orta ixtisas təhsili müəssisəsində təhsil alan zaman müvəffəqiyyət qazandığı fənlərdən azad edilirmi?**

- Təhsil haqqında Azərbaycan Respublikasının Qanuna əsasən subbakalavr kimi bakalavriat səviyyəsinə qəbul olunan tələbə eyni ixtisas üzrə bakalavriat səviyyəsinə qəbul olarsa və subbakalavr səviyyəsini yüksək nəticələrlə (fərqlənmə diplomu ilə) bitirərsə onun qazandığı kreditlər nəzərə alınır.

**79. Tələbə yuxarıdan fənn götürə bilərmi?**

- Dövlət sifarişi ilə təhsil alan və bütün təhsil müddətində ayrı-ayrı fənlərdən göstəricisi 81-100 bal arasında olan tələbələrə əlavə ödəniş etmədən bu Qaydaların 3.2.11-ci yarımbəndinin tələbləri nəzərə alınmaqla, təhsil aldığı ixtisas üzrə əlavə fənn (fənlər) seçməyə icazə verilir. Bütün hallarda bir semestrdə tələbənin götürdüyü kreditlərin sayı 40-dan çox olmamalıdır.

**80. Tələbə fənni və müəllimi seçə bilərmi?**

- “Qaydalar”a uyğun olaraq tələbələrə müəllim və seçmə fənləri seçmək hüququ verilir.

**81. Seçmə fənlər hansı qaydada seçilir?**

- Seçmə fənlər bir qayda olaraq birinci kurslar üçün ali təhsil müəssisəsi tərəfindən, yuxarı kursda isə tələbələr tərəfindən seçilir.

**82. Əmək bazarının və işə götürənlərin tələbləri əsasında seçmə fənlərin tədrisinə icazə verilirmi?**

- Seçmə fənlər müəyyən edilərkən əmək bazarının və işə götürənlərin tələbləri nəzərə alınır.

**83. Müvəffəqiyyət qazanılmış fənlərdən qiyməti yüksəltmək üçün tələbəyə təkrar imtahan verməyə icazə verilirmi?**

- Xeyir. Müvəffəqiyyət qazanılmış fənlərdən qiyməti yüksəltmək üçün tələbəyə icazə verilmir. Tələbə müvəffəqiyyət qazandığı fəndən qiymətini ancaq yay semestrində yüksəldə bilər. Müvəffəq qiymət almasa əvvəlki nəticəsi saxlanılır.

**84. Tələbənin dərslərdə iştirakı məcburidir?**

- Bəli. Tədris məşğələlərində iştirak məcburidir.

**85. Tələbə hansı hallarda imtahan buraxılmır?**

- Tələbə semestr ərzində fənlər üzrə nəzərdə tutulan dərs saatlarının 25%-dən çoxunda iştirak etmədiyi halda imtahana (imtahanlara) buraxılmır.

**86. Tələbənin dərsə davamiyyətə görə balı necə hesablanılır?**

- Semestr ərzində fənlər üzrə nəzərdə tutulan dərs saatlarının hər 10%-nə görə bir bal çıxılır.

**87. Tələbəyə dərsə davamiyyətə görə neçə bal verilir?**

- Dərsə davamiyyətə görə tələbəyə 10 bal verilir.

**88. Tələbələrin biliyi hansı sistemlə hesablanılır?**

- Tələbələrin biliyi çoxballı sistem əsasında hesablanılır. İki hissədən ibarət olur. I hissə 50 bal– dərsə davamiyyətə və semestr ərzindəki fəaliyyətə görə, II hissə 50 bal- imtahanda topladığı bala görə. Tələbənin semestr ərzində fəaliyyətinə görə ballar aşağıdakı kimi hesablanılır. 30 bal seminar (praktik) məşğələlərə cavaba və ya laboratoriya işlərinin yerinə yetirilməsinə görə, 10 bal sərbəst işlərin yerinə yetirilməsinə və 10 bal dərsə davamiyyətə görə- cəmi 50 bal. İmtahan balı isə 0-10 bal arası qiymətləndirilir. Yazılı, qabiliyyət və ya şifahi imtahanda tələbəyə 5 sual təqdim edilir. Hər bir suala görə tələbənin balları toplanılaraq imtahan balı hesablanılır.

**89. Tələbə imtahandan neçə bal topladıqda imtahandan keçmiş hesab edilir?**

- Tələbənin imtahandan topladığı bal (minimum 17 bal olmaq şərti ilə) ilə imtahanaqədərki balın cəmi 51 olduqda imtahandan keçmiş hesab edilir.

**90. İmtahanlar hansı formada keçirilir?**

- İmtahanlar fənnin xüsusiyyətindən asılı olaraq test, yazılı, şifahi və ya qabiliyyət formasında keçirilə bilər.

**91. Tələbə bərpa olunduğu, bir ixtisasdan digərinə köçürüldüyü və ya başqa ali təhsil müəssisəsindən köçürüldüyü halda tədris planları üzrə yaranmış fənn fərqlərini necə ödəyə bilər?**

- Bərpa olunan, ixtisasını dəyişən və ya başqa ali təhsil müəssisəsindən köçürülmə yolu ilə gələn tələbələr fənn fərqlərini alt qrupda tədris məşğələlərində ödənişli əsaslarla iştirak edərək imtahan verməklə ləğv edə bilər. Alt qrupda tədris məşğələlərində iştirak etmək üçün təhsil haqqı 25-ci bənddəki qaydada ödənilir.

**92. Təhsil haqqını hissələrə bölərək ödəmək mümkündür?**

- Birinci kursa qəbul olunan zaman Universitetlə imzaladığınız "Fərdi müqavilə"yə əsasən payız semestrinin təhsil təhsil haqqını birinci kurs üçün qeydiyyatdan keçən zaman, yuxarı kurslar üçün isə 30 sentyabra qədər, yaz semestrinə aid hissəsini isə dekabr ayının 20-nə qədər ödəməlidir.

**93. Təhsil haqqını ödəməyən tələbə imtahana buraxılır?**

- Xeyir. Təhsil haqqını ödəməyən tələbə imtahanlara buraxılmır. Təhsil haqqı borcu qaldığına görə semestrin sonunda Universitetdən xaric oluna bilər.

**94. Tələbə bir ixtisasdan digərinə və ya bir ali məktəbdən digərinə köçürülə bilərmi?**

- Bəli. Tələbə bir ixtisasdan digərinə və ya bir ali məktəbdən digərinə köçürülə bilər. Köçürülmə Təhsil Nazirliyinin transfer.edu.az portalı vasitəsilə həyata keçirilir.

**95. Tələbənin köçürlməsi və ya ixtisas dəyişməsi hansı hallarda mümkündür?**

- Tələbələrin bir dövlət ali təhsil müəssisəsindən digər dövlət ali təhsil müəssisəsinə, yaxud bir ixtisasdan digərinə köçürülməsi Təhsil Nazirliyinin razılığı ilə qış və yay tətili dövründə müvafiq ali məktəb rəhbərliyinin əmri ilə həyata keçirilir. Mövcud qaydalara görə, tələbələrin bir ali məktəbdən digərinə köçürülməsinə yalnız əsaslı səbəblər olduğu halda (ailə qurduqda, sağlamlıqla bağlı problem olduqda, yaşayış yerini dəyişdikdə və s.) icazə verilir. Dövlət adından təsisçi funksiyalarını həyata keçirən digər nazirlik, dövlət komitəsi və ya idarələrin tabeliyində olan dövlət ali təhsil müəssisələrinə köçürülməsi və bərpası tabe olduqları qurumun və Təhsil Nazirliyinin razılığı ilə həyata keçirilir.

**96. Ali təhsil müəssisələrinin bakalavriat səviyyələrində təhsilalanların köçürülməsi zamanı hansı minimal keçid balları nəzərə alınır?**

- Təhsil Nazirliyi minimal keçid balları haqqında məlumatı Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin (DİM) rəsmi internet səhifəsindən (http://www.tqdk.gov.az/activities/exams/bakalavr/) əldə edir.

**97. Magistratura səviyyəsində təhsil alan tələbənin köçürülməsi hansı qaydada aparılır?**

- Magistratura səviyyəsinin 1-ci tədris ili müddətində tələbələrin öz ixtisası (ixtisaslaşması) üzrə bir ali təhsil müəssisəsindən digərinə köçürülməsi və ya təhsilalma formasını dəyişməsi o şərtlə aparıla bilər ki, DİM tərəfindən keçirilən qəbul imtahanlarında tələbənin topladığı bal qəbul olunduğu ildə köçürülmək istədiyi ali təhsil müəssisəsində müvafiq ixtisas (ixtisaslaşma) üzrə minimal keçid balından az olmasın.

**98. Əgər tələbə dövlət hesabına təhsil alırsa köçürüldükdən sonra o hansı formada təhsilini davam etdirir?**

- Bir ali təhsil müəssisəsindən digərinə köçürülən, ixtisasını dəyişən şəxslər (dövlət sifarişi əsasında təhsilalanların eyni ixtisas üzrə köçürülməsi istisna olmaqla) təhsillərini yalnız ödənişli əsaslarla davam etdirirlər.

**99. Ölkə daxilində bakalavriat səviyyəsində tələbələrin bir ali təhsil müəssisəsindən digərinə köçürülməsi hansı şərtlərlə aparıla bilər?**

- Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin (DİM) tərəfindən keçirilən qəbul imtahanlarında tələbənin topladığı bal qəbul olunduğu ildə köçürülmək istədiyi ali təhsil müəssisəsində müvafiq ixtisas üzrə minimal keçid balından az olmamalıdır. Bu zaman tələbənin qəbul olunduğu və köçürülmək istədiyi ixtisaslar DİM tərəfindən müəyyən olunmuş eyni ixtisas qrupu daxilində olmalıdır. II və III ixtisas qruplarında müəyyənləşdirilmiş "tarix və coğrafiya müəllimliyi", "tarix müəllimliyi" və "tarix" ixtisasları öz aralarında, eləcə də II ixtisas qrupunda müəyyənləşdirilmiş "beynəlxalq münasibətlər" və "regionşünaslıq" ixtisasları isə III ixtisas qrupuna daxil olan digər ixtisaslarla (mədəniyyət və incəsənət ixtisasları istisna olmaqla) uyğun hesab edilməlidir.

**100. Xarici ölkələrin ali təhsil müəssisələrindən Azərbaycan Respublikası ali təhsil müəssisələrinə köçürülərkən əsas nəzərə alınan göstəricilər hansılardır?**

-Tələbənin təhsil aldığı ali təhsil müəssisəsinin dünyanın ən yaxşı ali təhsil müəssisələri reytinqlərində yer alması;

-Tələbənin xarici ölkə ali təhsil müəssisələrində əyani təhsil alması;

- DİM tərəfindən keçirilən imtahanlarda iştirak etmədikləri halda beynəlxalq səviyyəli imtahanlarda qazandığı nəticələr (SAT imtahanından yeni şkala üzrə ən azı 1000 bal (riyaziyyat üzrə ən azı 560 bal), TOEFL İBT imtahanından ən azı 75 bal, İELTS imtahanından ən azı 6.0 bal); qənaətbəxş akademik göstəriciləri; köçürülmə səbəbləri; təhsil aldığı ali təhsil müəssisənin dünyanın ən yaxşı ali təhsil müəssisələri reytinqlərində yer alması;

- DİM tərəfindən keçirilən qəbul imtahanlarında iştirak etdiyi halda tələbənin topladığı balın həmin ildə köçürülmək istədiyi ali təhsil müəssisəsində müvafiq ixtisas üzrə minimal keçid balından az olmaması və tələbənin akademik göstəriciləri.

**101. Köçürülmək istəyən tələbə hansı sənədləri toplamalıdır?**

- tələbənin təhsil müddətində fənlər üzrə topladığı kreditləri və qiymətləri (hərf və balla) özündə əks etdirən sənəd - akademik transkript (xaricdə təhsil alanlar üçün mövcud qaydada leqallaşdırılmış və Azərbaycan dilinə tərcümə olunmuş);
- təhsil aldığı müddətdə gediş-gəlişi təsdiq edən rəsmi sənəd (xarici pasport);
- ali təhsil müəssisəsinə qəbul olunarkən topladığı bal və ya DİM tərəfindən keçirilən imtahanlarda iştirak etməməsi haqqında sənəd (xaricdən köçürülənlər üçün);
- köçürülmə səbəblərini təsdiq edən sənəd (xarici ölkə ali təhsil müəssisələrindən Azərbaycan Respublikası ali təhsil müəssisələrinə köçürülərkən);
- beynəlxalq səviyyəli imtahanlarda (SAT, TOEFL, İELTS və s.) qazandıqları nəticələri təsdiq edən rəsmi sənədlər (xaricdən köçürülənlər və ya ölkə ali təhsil müəssisələrinə bu imtahanların nəticələri ilə qəbul olunanlar üçün);
- Dövlət adından təsisçi funksiyalarını həyata keçirən digər nazirlik, dövlət komitəsi və ya idarələrin tabeliyində olan dövlət ali təhsil müəssisələrinə köçürülən zaman həmin qurumun razılıq məktubu.

**102. Tələbənin köçürülmə əmri verildikdən sonra köçürülmədən imtina edə bilərmi?**

- Xeyr imtina edə bilməz. Tələbə yenidən qış və ya yay tətili dövründə transfer.edu.az elektron portalına müraciət edə bilər.

**103. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin elektron köçürülmədə iştirak etmək hüququ varmı?**

- Bəli.

**104. Bir semestr ərzində tələbə transfer.edu.az saytında neçə dəfə qeydiyyatdan keçə bilər?**

- Hər semestrdə yalnız bir dəfə.

**105. Subbakalavr kimi bakalavriat səviyyəsində təhsil alan tələbənin köçürülməsi hansı qaydada aparılır?**

- Subbakalavr kimi bakalavriat səviyyəsində təhsil alan tələbənin köçürülməsi Təhsil Nazirliyinin transfer.edu.az portalı vasitəsilə həyata keçirilir. Bu zaman tələbə ancaq təhsil formasını (əyanidən qiyabiyə və ya əksinə) dəyişə bilər. Subbakalavr kimi bakalavriat səviyyəsində təhsil alan şəxslərin ixtisasını dəyişməsinə, bir ali təhsil müəssisəsindən digərinə köçürülməsinə yol verilmir.

**106. Yay semestri nə üçün təşkil edilir?**

- Yay semestri payız və yaz semestrlərindən akademik borcu qalan, habelə dərsə davamiyyəti aşağı olan (25%-dən çox dərsdə iştirak etməyən), imtahana buraxılmayan və dərsi dinləmiş tələbələr üçün nəzərdə tutulur. Bu zaman tələbələrin iştirak etdiyi dərs saatlarının miqdarı 50%-dən az olmamalıdır. Yay semestri ödənişli əsaslarla təşkil olunur. Bu zaman tədris üçün 6 həftə vaxt müəyyənləşdirilir (5 həftə tədris məşğələləri üçün, 1 həftə imtahan sesiyası üçün). Təhsil haqqını hesablamaq üçün ixtisas üzrə illik təhsil haqqını 60-a bölüb götürülən kreditə vurmaq lazımdır. Yay semestri təşkil olunan zaman qrupda tələbələrin sayı ali təhsil müəssisəsinin maddi-texniki imkanları nəzərə alınaraq müəyyən olunur. Əgər yay semestrində iştirak etmək istəyən tələbə sayı həmin normativdən az olarsa həmin tələbələr müəyyən edilmiş saya uyğun təhsil haqqı ödəməlidir. Əks halda yay semestri təşkil olunmur.

**107. Yay semestrində neçə kredit götürülə bilər?**

- Yay semestrində cəmi 10 kredit götürülməsinə icazə verilir?

**108. Köçürlümə ilə gələn və fənn fərqi yaranan, normativ müddətdən artıq təhsil alan şəxslər yay semestrində iştirak edə bilərmi?**

- Xeyir. Yay semestri 59-cu bənddə qeyd edilən tələbələr üçün təşkil olunur.

**109. Normativ təhsil müddətindən artıq təhsil alan tələbələr neçə kredit götürə bilər?**

- Normativ təhsil müddətindən artıq təhsil alan tələbələr fənlərin tədris ardıcıllığı gözlənilməklə (prerekvizitlik) 40 kredit götürə bilər.

**110. ÜOMG göstəricilərinə görə təqaüdə layiq görülmüş, lakin sonradan hər hansı səbəbdən akademik məzuniyyət götürmüş tələbənin təqaüdü davam etdirilirmi?**

- Akademik məzuniyyət götürmüş tələbənin təqaüdü dayandırılmır. Təqaüd aldığı semestrin sonuna qədər təqaüdünün verilməsi davam etdirilir.

**Qeyd:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli 348 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, *əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində* kredit sistemi ilə tədrisin təşkili Qaydaları" ilə aşağıdakı linklərə daxil olmaqla tanış ola bilərsiniz.

http://www.e-qanun.az/framework/27030,
http://www.e-qanun.az/framework/35870

## İstifadə edilmiş mənbələr


1. Azərbaycan Respublikasının təhsil haqqında Qanunu
2. Təhsil prosesi ilə əlaqədar normativ-hüquqi aktlar
3. Təhsil Nazirliyinin əmr və sərəncamları

4. Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları
5. Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, *əsas (baza ali) tibb təhsilində* təhsilalanların köçürülməsi, xaric edilməsi, bərpa olunması və akademik məzuniyyət götürülməsinə dair Qaydalar